# QARABAĞ AZƏRBAYCANDIR!




**26 sentyabr  2020-ci il**




**10 noyabr 2020-ci il**

– 44 günlük Vətən Müharibəsinin nəticəsində ölkəmizin xəritəsində hansı dəyişikliklər baş verdi?

FƏALİYYƏT

II Qarabağ müharibəsində rəşadətli ordumuzun azad etdiyi inzibati rayonları müəyyən edin və fiziki xəritədən istifadə edərək arazidəki  təbii coğrafi obyektləri yazın:




| Azad edilən inzibati rayonlar | Fiziki coğrafi obyektlər |
|---|---|
| Kəlbəcər | Qarabağ vulkanik yaylası, Tərtər çayı, |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |

*Tədqiqat sualı* – İşğaldan azad edilmiş rayonların relyefininin  hərbi əməliyyatlara  təsirini təhlil edin.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ 27 illik düşmən işğalından sonra nəhayət ki azad olundu. Xalqımızın həsrətlə gözlədiyi bu azadlığı müzəffər ordumuz qazandı. Ali baş komandan İlham Əliyevin sərkərdəliyi ilə Azərbaycan əsgərləri qısa müddət ərzində düşmənin müdafiə sistemlərini darmadağın etdi. Ordumuz döyüşlərin ilk günlərindən strateji nöqtələri ələ keçirdi.

Bu maraq-lıdır...

• **Strateji məntəqə** – ümumi hərbi məqsədləri həyata keçirmək üçün əhəmiyyəti olan ərazidir.

Hərbi cəhətdən strateji məntəqə olan Murov zirvəsinin düşməndən azad olunması döyüş bölgələrinə nəzarət etməyə imkan verdi. Araz çayı boyunca ardıcıl olaraq Cəbrayıl, Füzuli və Zəngilanın işğaldan azad edilməsi isə düşmənin xarici ölkələr ilə əlaqəsinin kəsilməsi ilə nəticələndi. Bu isə Ermənistana silah-sursat daşınmasının qarşısını nisbətən aldı. Araz çayının sol sahillərindən şimal istiqamətə irəlilədikcə hərbiçilərimizin iri döyüş texnikalardan istifadə imkanları azalırdı. Buna ərazinin relyefi imkan vermirdi. Lakin, dağlarda igid əsgərlərimiz əlbəyaxa döyüşlərdə də düşmən qüvvələrini geri oturtmağı bacardı və sıldırım qayalıqlar üzərində yerləşən Şuşa qalasına üç rəngli müqəddəs bayrağımızı asdı. Bununla da xalqımızın Qarabağ həsrətinə son qoyuldu.

**• İNFORMASİYA FONDU •**

Qarabağ sözünün rast gəlindiyi ilk mənbələr VII əsrə aiddir. Türk dilində "qara" – böyük, geniş, "bağ" sözü isə meyvəlik, sıx ağaclıq deməkdir.

Qarabağ Azərbaycanın qərb tərəfində Kiçik Qafqaz vilayətində yerləşir. Cənubda Araz çayından başlayaraq şimalda Murov silsiləsinə, şərqdə Mil düzündən, qərbdə Ermənistan sərhədlərinədək ərazini əhatə edir. Relyefinə görə Qarabağ ərazisi düzən və dağlıq hissələrə bölünür. Ən mühüm düzən ərazilər Qarabağ düzü, Gəyən düzü, İncə düzü, Yazı yaylası, Həkəri yaylasıdır. Lakin Qarabağın böyük bir hissəsi mürəkkəb dağlıqlardan ibarətdir. Burada Qarabağ sıra dağları, Murovdağ silsiləsi, Mıxtökən, Uzunyal, Xocayurd, Çaxmax, Çalbayır, Ziyarət silsilələri uzanır. Ən yüksək zirvələri Gamışdağ, Dəlidağ, Murovdağ, Böyük Kirs, Qızqala, Qırxqız, Hinaldağ və s-dir. Qarabağda ən mürəkkəb relyef Kəlbəcər rayonunu əhatə edən Vulkanik yayladadır. Qarabağ ərazisi faydalı qazıntılar ilə zəngidir. Kəlbəcərdəki Zod (Söyüdlü), Zəngilandakı Vejnəli qızıl, Laçında (Narzanlı) civə, xromit, mərmər və oniks, Kəlbəcərdəki (Mehmanə) sink-qurğuşun və digər yataqları vardır.

Qarabağın relyefi kimi iqlimi də mürəkkəbdir. Uca zirvələrin başı il boyu qarlı olur. Bu isti yay günlərində ətrafa sərinlik verir. Hündür zirvələrdə dağ tundra, aşağıya doğru dağ-soyuq, alçaq dağlıqda isə əlverişli mülayim-isti iqlim sahələri hökm sürür.

Qarabağ füsunkar gözəlliyə malik gölləri, çayları, şəlalələri, bulaqları ilə məşhurdur. Həkəri, Bərgüşad, Bazarçay, Köndələn çayları Araz hövzəsinə, Tərtər, Qarqar, Xaçın çayları isə Kür hövzəsinə aiddir. Qarabağda öz gözəlliyi ilə seçilən Böyük Alagöl, Kiçik Alagöllər Vulkanik yaylada yerləşir.

Qarabağ minerallarla zəngin müalicəvi və içməli suyu olan bulaqlarla zəngindir. Demək olar ki hər kənddə bir neçə bulaq vardır. Bulaqlardan ən məşhurları Kəlbəcərdəki İstisu, Şuşadakı İsa bulağı və Turşsudur.

Relyef, iqlim və şirin su mənbələri Qarabağda zəngin bitki örtüyünün , münbit torpaqların yaranmasına səbəb olmuşdur. Qiymətli bitki növləri ( Xarı bülbül, Araz palıdı və s) ilə zəngin olan meşələr də təəssüf ki, düşmənlərin qəzəbinə tuş gəlmişdir. Ermənilər qiymətli ağac növlərini- üç minillik yaşı olan Şərq çinarı meşələrini məhv etmişdir.

Qarabağ bir zamanlar insanların firavan yaşadıqları abad kəndləri, şəhərləri ilə məşhur idi. İşğal altında qalan dövr ərzində ermənilər orada yaşayış məntəqələrini-inzibati binaları, məscidləri, yaşayış evlərini, yolları, elektrik dirəklərini hətta qəbirstanlıqları da darmadağın etmişdir.



"Çörək muzeyi". Ağdam şəhəri.
**27 il əvvəl**



"Çörək muzeyi". Ağdam şəhəri.
**işğaldan sonra**

Onlar bu vəhşilikləri edərkən hesab edirdilər ki, azərbaycanlılar bir daha doğma yurdlarına qayıtmayacaqlar. Lakin bizim xalqımız ata yurduna bağlı, elinə -obasına sədaqətlidir. Doğma ocaqlarından köçkün düşən və Qarabağ arzusu ilə ürəyi çırpınan insanlarımız qısa müddətdə bu xarabalıqları cənnətə çevirəcəkdir. Bunun üçün "Böyük qayıdış" layihələri artıq həyata keçirilməyə başlanılmışdır. Çünki Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**ÖYRƏNDİKLƏRİNİZİ** **TƏTBİQ EDİN**

Mətndə adı çəkilən çaylar və onların keçdikləri inzibati rayonları adlarını müəyyənləşdirin və cədvəli tamamlayın



| Çaylar | İnzibati rayonlar |
|---|---|
| | |

**ÖYRƏNDİKLƏRİNİZİ** **YOXLAYIN**

Uyğunluğu müəyyən edin və xətlə birləşdirin:

| | |
|---|---|
| Kəlbəcər | Vejnəli |
| Laçın | Zod (Söyüdlü) |
| Şuşa | Narzanlı |
| Zəngilan | İsa bulağı |

*Nərminə Seyfullayeva*
*Şərafət Hüseynli*